***Zahid XƏLİL***



# Qılıncdan iti, çiçəkdən zərif şeirlər

*Məmməd İsmayılın poeziyası haqqında qeydlər*

Dünyanı zərif duyğularla dərk etməyin ən yaxşı yolu poeziyadır.

Məmməd İsmayıl poeziyasını diqqətlə nəzərdən keçirdikdə filosofların dəfələrlə təkrar etdikləri bu fikrin nə qədər həqiqət olduğuna bir daha inanırsan. Bu poeziya idrakın elə bir mərhələsinə çatıb ki, onun bir sıra nümunələri sözün həqiqi mənasında fəlsəfəyə şevrilib.

***Dünya işıq ucu – işıq inamdı,***
***İşıqla zülmətin yarışı gedir.***
***Hər insan günəşə can atan şamdı,***
***Hər insan öləndə bir işıq keçir.***

***İşıqdı torpağa səpilən dən-dən,***
***Günəşin şəfəqi – kövşən, işıqdı.***
***Kim bilir, bəlkə də Tanrı deyilən***
***Gəlib bacamızdan düşən işıqdı.***
*("İşıq")*

Bunlar təsadüfi misralar deyi, həyati faktlarla möhürlənən bir həqiqətdən yaranan duyğuların ifadəsidir. Müəllif şeirin yaranma səbəblərini belə izah edir:

Müharibə illərində köhnə evimiz uçduğundan əmim anamla məni qazma arı damına – komasına köçürmüşdü. Pəncərə əvəzinə damın üstündə baca açılmışdı. Damın yeganə işıqlığından – bacadan üstümüzə gündüz günəş, gecə ay işığı düşərdi. Bəlkə bu, mənim gələcək taleyimə açılan ilk qapı idi – işıq qapısı."

Uşaqlığının belə acınacaqlı vəziyyətdə olması şairin həm özünü, həm də istifadə etdiyi məcazları sərtləşdirir:

***Toxumun cücərən dilləri ülgüc,***
***Torpağın içindən keçir necə ki,***
***Kim bilir, bəlkə də içindəki güc***
***Onu qaranlıqdan işığa çəkir.***

– misralarında zərif toxumun cücərtilərini insanın ruhunu oxşayan əşya və predmetlərə deyil, iti ülgücə bənzədir – körpə fidanların torpağı deşib işıqlı dünyaya çıxmasından ötrü. Yəni müharibəyə qalib gəlməsi üçün toxumun cücərən dilləri ülgüc kimi kəsici və deşici olmalı idi.

Sanki bu misralar fəlsəfənin əzəli və əbədi mövzusu olan əksliklərin vəhdəti və mübarizəsi qanununu əks etdirməyə xidmət göstərir. Başqa bir şeirində isə bu, bir qədər də konkretləşir. Cəmiyyətdə gedən proseslərdə həmin qanunu xalqın sadə dilində, amma, fəlsəfi yüksəklikdən yeni nümunələrlə vurğulanır:

***Çıxdı insanlığın sonuna şeytan,***
***Neyləsin, belədir işi onun da.***
***Girdi insanlığın donuna şeytan,***
***O, mənim donumda, sənin donunda.***

***Salıb üstümüzə haqq işığını***
***Günəşin üzünü bizə çevirdi.***
***Baxdı, tanımadı yaratdığını,***
***Baxdı, astarını üzə çevirdi.***

*("Bizim içimizdə şeytan yaşayır")*

Astarın üzə çevrilməsi mənası səciyyələnəndə məlum olur ki, Allahın yaratdığı insanın ilkin mahiyyəti dəyişmişdir, sevinci də kədəri də saxtalaşmışdır, üzdən gülür, üzdən kədərlənir. Daha sevgilər ürəkləri titrətmir, daha kədərlər dağları yerindən oynatmır.

Bu gün cəmiyyətdə baş verən neqativ halların hamısının günahı məhz həmin Şeytandadır. Bir obraz kimi formalaşan Şeytan cəmiyyətdə daha yaxşı yaşamaq uğrunda yalan danışan, satqınçılıqla məşğul olan, şəxsi mənafeyini hətta anasından, vətənindən üstün tutan insanların keçirdiyi hisslərin ümumiləşmiş obrazıdır. Bu cür insanlarla (bu konteksdə Şeytanla) mübarizə aparmaq ona görə çətindir ki, onlar üçün müqəddəs heç nə yoxdur. Lazım gələndə hər cür alçaqlığa əl atıb aradan çıxa bilirlər. Belə məqamlarda mənfi qüvvələr daha tez dil tapır, qarşısıalınmaz qüvvəyə çevrilir. Buna görə də şair Allahı imdada çağırır. Şeytana insanın (şeytanlıga insanlığın, əyriliyə düzlüyün, əclaflıga ləyaqətin...) qalib gəlməsi mümkün deyil.

***Bizi eşidirsə o ulu tanrı,***
***Ya bizi özünə bəndə sayırsa,***
***Başından aşmırsa dərdi, azarı,***
***Bizi də hərdənbir xatırlayırsa,***
***Az bizi yalana məzar eləsin.***
***Qoy üzə döndərsin astarımızı,***
***Bizim üzümüzü astar eləsin,***
***Bəlkə canımızdan çıxa bu şeytan.***

Şeirdə Şeytanın (insana xas olmayan bütün mənfi keyfiyyətlərin; acgözlüyün, xəbisliyin, mərdümazarlığın...) qarşısında İnsanın (ləyaqətin, saflığın, təmizliyin) acizliyi, köməksizliyi görünür. Bəşəriyyət öz ömrünü uzatmaq istəyirsə, bu problemin həllinə yönəli işlər görməlidir. O, bizim hər birimizi ətrafımızdakı aləmə diqqətlə baxmağa təhrik edir, şeytanlarla nəinki dostluq etməyi qadağan edir, onunla mübarizə aparmağa səsləyir. Yalnız bu yolla bəşəriyyət şeytandan xilas ola bilər.

Məmməd İsmayıl bir şair kimi ona təsir edən bütün mövzularda əsər yaradır. Amma bir elmi təsnifat kimi yanaşdıqda, onun üç mövzuda daha çox yazdığını görürük: Vətən, ana və təbiət. Bu mövzuların hər biri çoxlu çeşidləri ilə diqqəti cəlb edir. Adi hesabla Vətən mövzusuna həsr olunmuş əsərləri barmaqla sayılacaq qədərdir. Amma az qala bütün əsərlərinin mahiyyətində Vətən sevgisi aparıcı ideya kimi görünür:

***Dostu bu dünyada seçib taparlar.***
***Dost-düşmən seçilər, vətən seçilməz.***
***Qayanı yonarlar, dağı çaparlar,***
***Dağ qaya kiçilər, vətən kiçilməz.***

Ömrünün təxminən otuz ilini qürbətdə keçirən şair bu şeiri Azərbaycanda olanda yazmışdı. Sanki taleyində qürbətlik həyatı olacağını əvvəlcədən duyurdu:

***Keçər taleyindən, ömürdən keçər,***
***Qovuşmaz karvana, yovuşmaz köçə.***
***Köçsə qürbət eldə qəlbinə köçər,***
***Ağır elli-günlü vətən köçülməz.***

*(“Vətən”)*

Məmməd İsmayıl üçün “ağır elli-günlü vətən” doğma kəndlərindəki evlərindən başlayır. Əsrik kəndinin başının üstündə ucalan Kəmər qayası, o qayada bitən və qədim cəngavərləri xatırladan Dağdağan ağacı, səhərdən axşamacan doğma qapılarını taqqataq döyəcləyən Ağacdələn ona hər şeydən əzizdir.

***Könlünü göynədər ilk ev, ilk uçuş,***
***Qayıdıb gedirsən kəndə dalınca.***
***Orda bilərsən ki, arzuların quş,***
***Piyada gəzmisən sən də dalınca.***

*(“İlk ev – ilk uçuş”)*

Bütün bunları isə şöhrətin zirvəsinə qalxandan sonra dərk edirsən.

Hər bir poetik əsər onu yaradanın şəxsi xarakteri ilə sıx bağlıdır. Şairin inkişaf prosesi bir tərəfdən ailə mühiti ilə, digər tərəfdən uşaqlıq və ilk gənclik illərində qarşılaşdığı və xəyalında silinməz izlər buraxan hadisələrin təsiri ilə formalaşır. Bu proses onun xarakterini müəyyənləşdirir. Həm də bir bioloji varlıq kimi ana bətnində daşıyıcısı olduğu genlərlə təkmilləşir. Kodlaşdırılmış həmin genlərin səciyyəvi cəhətləri

insanın xarakterində həmişə onu izləyir, həm fiziki, həm cismani, həm də digər keyfiyyətlərinin əsası olur.

Məmməd İsmayılın atası müharibədə həlak olub. Şair onun üzünü görməyib, səsini eşitməyib. Təkcə anasının söhbətlərindən və münasibətindən bilib ki, o, cəsur adam olub. Anası Gulzar xanım balaca Məmmədin şeir dəftərini ən müqəddəs kitablar qədər əzizləyib və oğlunun şair olacağını təsəvvüründə canlandıranda vəcdə gəlirmiş. Ananın sözə verdiyi qiymət, atanın gözlərini qırpmadan vətənin müdafiəsinə getməsi, onların sınaqdan çıxmış sevgiləri şairin xarakterində ömürlük izlər qoymaya bilməzdi:

***Ağlımız təzəcə kəsirdi onda,***
***Bir həsrət gəzirdi dərəni, düzü.***
***Bir ad dolaşırdı söz arasında,***
***Ümiddən asılan qılınc kimiydik.***
***Analar qınından sıyırıb bizi***
***Qoymuşdu nəfsiylə öz arasında.***

*(“Ümiddən asılan qılınclar”)*

Şair, xarakterində kodlaşan keyfiyyətlərdən birini belə izah edir:

“Bizdən əvvəlki nəsildən, ata-babadan, əmi-dayıdan bir əmim qalmışdı. Nəslin sonuncu estafet ağacıydı. Nəyi varsa, bizə ötürməliydi. Qəfildəncə xəstələnib mənim 70 yaşlı, cəfakeş, üzüyola əmim. Son anda oğula da baxmayıb, arvad-uşağa da. Soruşublar, nə istəyirsən, de verək. Son arzunu söylə, yerinə yetirək. Bircə məni istəyib, bircə məni, son nəfəsində. Ona da çatmadım. Quruca şəklimə can vermişdi mənim Mehrəli əmim. ”

Torpağa, kökə, nəslin ruhuna bağlılıq Məmməd İsmayıl xarakterinin əsas məziyyətlərindəndir. Tovuzun Əsrik kəndində ev tikdirib. Əvvəldən də yaxşı bilirdi ki, bu evdə onun yaşamaq imkanları çox məhduddu. Amma böyük əziyyətlə evi tikdirdi və yaşamadı. Evi yaşamaq üçün tikdirməmişdi. Ona görə tikdirmişdi ki, canında yaşayan insanlara – anasına, atasına, əmisinə, şəhər həyatına üstünlük verən ailəsinə, dörd qız övladına sədaqətini izah eləsin, onları sevdiyini təkcə şeirləri ilə deyil, həm də əməli ilə sübut eləsin.

***Deyim o illərdə qızım, nə vardı,***
***Orda Gülzar adlı bir nənə vardı.***
***Bir də korun-korun alışan ocaq.***
***Bir də bir uşaq.***
***Sorub barmağını yol gözləyirdi,***
***Yorub marağını yol gözləyirdi.***

*(“Ata” kəlməsi)*

Məmməd İsmayılın ilk şeirlərində təbiətin romantikası, ekoloji problemlər yer alırdı. Gənc şair yaxşı başa düşürdü ki, təbiəti qorumaq, əslində, cəmiyyətin ekologiyasını qorumaqdır və bu, bəlkə də cəmiyyətin

bütün problemlərindən ən vacibidir. Şeirlərinin birində meşədə kəsilmiş budağı öz qoluna bənzədir, bu gözəlliyi qorumalı adamları gənclik ehtirası ilə qınayırdı:

***Hardasan, ay meşəbəyi?***
***De, nə üçün tapılmırsan***
***Öz evində, eşiyində?***
***De, beləmi dayanarlar***
***Gözəlliyin keşiyində?!***

*("Gözəlliyin keşiyində")*

Müşahidə qabiliyyəti və şairlik vərdişləri inkişaf etdikcə, o, təbiətin yeni keyfiyyətlərini duyur. O, taxıl zəmilərinin sarı dənizə bənzədiyini görür, bu dəniz dalğalandıqca, ondan payızın qoxusunu sinəsinə çəkir:

***Dağların başına çökür duman, sis,***
***Havadan payızın qoxusu gəlir.***
***Yel əsir, tərpənir sarı bir dəniz,***
***Yorğun təbiətin yuxusu gəlir.***

*("Payız lövhələri")*

Bir qədər yaşa dolduqan sonra şair təbiətlə cəmiyyət hadisələri arasındakı əlaqəni görür və çox mükəmməl poetik nümunə olan "Ağacdələn" şeirini yazır. Nəzərə alsaq ki, şair təbiəti bir bioloji varlıq kimi sadəcə müşahidə etmir, o, cəmiyyətlə təmasa girir, ətrafdakı hadisələri saf-çürük edir, nəticələr çıxarır, bəzən adi bir əhvalat onu sanki yuxudan oyadır, çoxdan bəri sinəsində qövr eləyən yaralar yada düşür, təbii ki, gözəl bir əsərin yaranmasına səbəb olur.

"Yolum hərdən-hərdən kəndimizə düşür. Orada anamdan ömürlü, məndən vəfalı evimiz hələ də tək-tənha, döyüşlərdən geri dönməyən atamı gözləyir. Qapısı bağlı qalan yetim, tənha evimiz. Bir dəfə payız çənində gəlmişdim ata yurduna. Həyətə çatar-çatmaz, səs eşitdim, kimsə qapımızı döyürdü. Ayaq saxladım. Elə bil gəlişimi ayların-illərin acılı-şirinli xatirələri ilə qol-boyun olan evimizə kimsə xəbər verirdi. Həyətə bir az da yaxınlaşdım. Bir az da... Axı bu şərin şər vaxtı, payız çənində mənim gəlişimdən kimsə xəbər tutmamışdı. Evimizdə isə taleyin qəzavü-qədərindən başqa kimsə yaşamırdı. Bəs elə isə bu kimsəsiz evin qapısını döyən kim idi? Amma bu səslər insan barmaqlarının səsinə oxşamırdı, nəsə qaibanə bir səs idi. Sən demə, qayğısız Ağacdələn tənha evimizin köhnə, çürüməkdə olan qapısını dimdikləyirdi. O kim idi?Bəlkə atamın ruhuydu, bəlkə anamın, bəlkə vaxtın, zamanın, ya bəlkə mənim arzularımın barmaqlarıydı – qəfil gəlişimi yetim evimizə xəbər verirdi. "

Təbiətin belə adi əhvalatları yalnız o şairin qələmində poeziya nümunəsinə çevrilir ki, həmin qələm sahibi fasilə vermədən öz idealları ilə yaşayır. O, təbiətdə baş verən bütün hadisələri öz taleyi ilə əlaqələndirir, düşüncələrinə uyğun mənalandırır.

Bu şeirdə təbiətlə insan danışır. Əslində, təbiət tərəfdən Ağacdələnin "taqqataq"ından başqa bir şey eşidilmir. Amma insan bu balaca quşcuğazın qarşısında acizdir. Çünki öhdəsinə çox işlər düşdüyünü dərk edir. Taleyin gözlənilməz oyunları işlərini tam, arzu etdiyi kimi həyata keçirməyə imkan verməyib. Onu Ağacdələnin qarşısında hesabat verməyə vadar edən də budur:

***Mən dünyaya ata, ana borcluyam,***
***Ünvanım var, bu ünvana borcluyam.***
***Bir canım var, bircə cana borcluyam,***
***Özgə nəyə, taraq, taraq say görüm.***

Şair kimlərə borclu olduğunu unutmadığını söyləməklə nəslinin layiqli övladı olduğunu göstərir. Növbəti bəndlərdə sanki Ağacdələnin fikrini yayındirmaq üçün daha ümumi məsələlərdən bəhs edir:

***Yavaş-yavaş çürümədə taxta, bax,***
***O taxtada ovxam olan vaxta bax.***
***İnad olub nə döyürsən, baxtabaxt***
***Açılmayan düyünləri duy görüm.***
*("Ağacdələn")*

Bu misralarla sanki mövqeləri dəyişmək, Ağacdələndən daha ağıllı və beləliklə, ondan güclü olduğunu göstərmək istəyir. Cəhd mənasız olsa da, misralar mənalı və düşündürücüdür. Adi ekoloji problem – təbiətin yaratdıqlarının çürüməsi hadisəsi "Yavaş-yavaş çürümədə taxta, bax" misrası, daha çox düşünməyə vadar edən "O taxtada ovxam olan vaxta bax" misrası ilə fəlsəfi yüksəkliyə qalxır. Zaman keçir, yarananlar yavaş-yavaş çürüyür. Çürüyən ötən illərin günləri, saatları, dəqiqələridir. Bunlar isə dünyanın açılmayan sirləridir. Şair quşa: açılmayan düyünləri "duy görüm" – deməklə zəmanənin qarşısında insanın da, quşun da acizliyini ifadə edir.

Təbiət şeirlərində də şair həyatda tək qalanların sirdaşı kimi çıxış edir. Sanki bu təklərin simasında özünü görür. Buna görə də onları daha kəskin, qılınc kimi iti metaforalarla tərənnüm edir. "Tək ağac" şeirində olduğu kimi.

"Kəndimizin başının üstündə bayraq kimi əzəmətli Kəmər qayası ucalır. Bu qayanın ən uca zirvəsində "çörəyi daşdan çıxan" bir ağac var, kökləri qayadan güc alan tənha dağdağan ağacı."

***Kişisən duruş tap o zirvədə, gəl,***
***Köksü nə pay umar, nə nişan görər.***
***Əgər baxan olsa hamıdan əvvəl***
***Məni o ağacla danışan görər.***

Yalnız təkliyinə görə yox, həm də insanlardan uzaq olduğu üçün sanki qürbətdə yaşayan bu ağacın vəziyyəti müəllifin taleyinə çox bənzəyir.

***Demə özü boyda qapalı sirmiş,***
***Gəlib çıxasıymış bu uzaq yaşa.***
***Bir misra şeirmiş, hey, hey deyirmiş:***
***Tənhalıq çətinsə, mənə bax, yaşa.***
*("Tək ağac")*

Beləliklə, təbiətin yaratdığı möcüzə ilə həyatın yaratdıqlarının harmonik vəhdəti insanı heyrətləndirir. Ekoloji mövzuya həsr olunan şeir beləcə cəmiyyət hadisələri ilə vəhdətdə verilir. Biz bu əsəri yalnız ona görə təbiətdən bəhs edən əsərlər sırasına aid edirik ki, onun baş qəhrəmanı ağacdır, əslində isə bu şeirdə təbiətin möcüzəsi cəmiyyət üçün nümunə kimi verilir və fəlsəfi düşüncəyə yol açır.

Şeir məşhur "Təklik faciədir" deyiminin alternativi təsiri bağışlayır. Şair "tək"likdə qəhrəmanlıq görür, əbədilik görür. İnsanın qəlbində "tək"lərə mərhəmət hissi doğurur. Şair iddia edir ki, "tək"lər qiymətlidir, Allah hər yetəni tək yaratmır, çünki özü də təkdir. Ona görə müqəddəsdir.

Məmməd İsmayılı düşündürən təkcə təbiətin ekologiyası deyil, həm də poeziyanın ekoloji təmizliyidir. Onun şeirlərində yad ünsürlər, başqa şairlərin fikir və ifadələrini tapmaq mümkün deyil.

Bu poeziyada bir mühüm amil diqqəti cəlb edir, şair dünyaya nəyi isə bəxş edəndə xoşbəxt olduğunu deyir. Şeirlərinin çoxunda mənəvi borclarını xatırlayır. Ataya, anaya, əmiyə, övladlarına, doğma kəndinə, qonum-qonşuya borcundan danışır:

***Ömrü qurban elə, obaya elə,***
***Bəlkə də axşamın səhəri yoxdu!***
***Bu yol da dağlara dırmaşır hələ,***
***Harda qırılacaq, xəbəri yoxdu.***
*("Təbiət taledə oxşayır bizə")*

Dağlara dırmaşan yolun harda yox olacağını bilmədiyimiz kimi, ömrün də yarımçıq qalacağı anı bilmirik. Nə qədər ki, əlində yaşamaq imkanın var, elə-obaya yaxşılıq elə, onu sabaha saxlama!

Bu nidaya cavab olaraq başqa bir şeirində bu xarakterə malik olan adamları qabaqda gedən bir şəxs kimi səciyyələndirir:

***Bizi səsləyərdi verdiyi vaxtda,***
***Biz hələ dünyaya gələnə kimi.***
***Bir adam yol gedir bizdən qabaqda,***
***Anadan olandan ölənə kimi.***

Lakin bu insan tək deyil. Onun nümunəsi arxasınca gələn nəslə də təsir edir. Beləliklə, şair iddia edir ki, bir-birinin qabağına düşüb arxasınca gələnlərə yol göstərən insanlar çox olsa, bəşəriyyət nurlu bir sahilə çıxar:

***Bir nurlu sahil var hələ sabahda,***
***Qaranlıq sulara yol açar avar.***
***Bir adam yol gedər bizdən qabaqda,***
***Amma, bir adam da bizdən sonra var.***
*("Bir adam yol gedir bizdən qabaqda")*

Mənəvi dünyanın tərənnümü Məmməd İsmayıl poeziyasını fəlsəfi təfəkkür səviyyəsinə qaldırır. Belə şeirlərdə insan öz ali mənasını dərk edir. "Mənim şeirlərim xoşuna gəlməz" şeirində dünya dəyərlərini maddiyyatda görən insanla şairin fəlsəfi dialoqu yer alır:

***Gözləri cibindən baxar həyata,***
***Nə bilsin şeirimdə hansı məna var.***
***Onda döyüşlərdə ölən bir ata,***
***Bir də boynubükük qalan ana var.***

Mənəviyyat tərbiyəsi bədii ədəbiyyatın, xüsusilə poeziyanın ən başlıca vəzifələrindən biridir. Bu cəhət Məmməd İsmayılın bütün əsərlərində mövcuddur. Lakin həmin məsələyə ayrıca şeir həsr etmək, xüsusilə təqdirəlayiqdir. İnsanın vəziyyəti elədir ki, o, daim maddi və mənəvi aləmin vəhdətindədir. Yəni insan həm maddi, həm də mənəvi varlıqdır. Bu tərəflərin hansına daha çox üstünlük vermək insanın ümumi inkişafında, həyata baxışında özünü göstərir. Şair maddiyyata meyil edən və beləliklə, insanlıqdan uzaqlaşan fərdlərə kömək əlini uzadır:

***Birdi doğruluğun yolu, ay çıram,***
***Harda bölünüb ki, ikiyə, doğru?!***
***Mən haram tikədən uzaq qaçıram,***
***Sən isə o haram tikəyə doğru.***
*("Mənim şeirlərim xoşuna gəlməz")*

Məmməd İsmayılın poeziyası onun özü ilə yaşıd olan bir nəslin tarixidir. Bu nəsil müharibənin məşəqqətlərini, iblis simalı insanları, xeyirxah adamları görüb, zəngin bir tarix yaşayıb. Amma bir sıra hallarda dərk edib ki, tarix dəyişkəndir, ədəbiyyat isə həyatın dəyişməyən qatlarını tərənnüm edir. Ədəbiyyat həyatın bir hadisəsini zaman və məkan çərçivəsindən çıxarıb bədii ümumiləşdirmələr yolu ilə mənalandırır. Məmməd İsmayıl da ədəbiyyatın bu əbədi yolunun cəsur bir yolçusu kimi gəlib səksən yaşına çatıb. Amma, qocalmayıb, bu gün yazdığı şeirlər, roman və esselər, etdiyi tərcümələr belə bir fikri söyləməyə əsas verir ki, o, yazdıqca cavanlaşan, cavanlaşdıqca daha böyük ehtirasla yazan bir sənətkardır. Ona uzun ömür və möhkəm cansağlığı arzulayıram.